# Unudulmayıb



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Yaşasaydı, bu il 75 yaşı tamam olacaqdı. Amma amansız xətəlik onu altmış yeddi yaşını keçəndən sonra haqladı. Tanınmış yazıçı-publisist Ağəddin Mansurzadə bizi tez tərk etdi.**

O, sadə, zəhmətkeş bir əkinçi ailəsində dünyaya gəlmişdi. Onun doğulduğu Qodman kəndi Masallının ən səfalı, görümlü-baxımlı kəndlərindən biridir. Talış dağlarının ətəklərindədir bu kənd. Atası Mansur kişi o kənddə sayılan-seçilən kişilərdən biri olub. Bütün ömrü boyu kəndindən, elindən-obasından ayrı düşməyib, tərbiyə etdiyi övladları ona başıucalıq gətiriblər. Mansur kişinin dörd oğlu -Zülfüqar, Ağəddin, Nurəddin və Fəxrəddin orta məktəbi bitirən kimi kənddən böyük şəhərlərə pərvazlanıblar, hərə öz taleyini, həyat yolunu müəyyənləşdirib. Zülfüqar Qodmanlı (Allah rəhmət eləsin!) Sumqayıtda yaşayıb, komsomol və partiya işində çalışıb, məktəb direktoru olub, respublika radiosunda curnalist kimi fəaliyyət göstərib. Fəxrəddin həkimlik sənətini seçib, indi də insanlara şəfa verməkdən yorulmur. Nurəddin mühəndisdir, əvvəldən elə bu peşəyə sadiqdir. Ağəddin isə uzun müddət istehsalatda, komsomol işində, müxtəlif vəzifələrdə çalışıb, işləyə-işləyə BDU-nun curnalistika fakültəsini bitirib. Uzun müddət "Ədəbiyyat və incəsənət" qəzetində (1970-1981), "Bakı" qəzetində (1981-1991) işləyib. İyirmi illik işcil arı fəaliyyəti ona bir publisist kimi seçilmək, fərqlənmək, həm də ədəbi mühitdə tanınmaq, sevilmək imkanı verdi.Bu qardaşları mənən birləşdirən isə SÖZ olub. Nurəddin də, Fəxrəddin də, üstəlik, Ağəddinin oğlu Orxan da şair kimi kimi tanınırlar, Yazıçılar Birliyinin üzvüdürlər.

Ağəddin Mansurzadəni tanıdan öncə onun publisist yazıları olub. Sonra da bədii yaradıcılığa keçib, hekayələr, povestlər yazıb. Deyə bilərəm ki, onun nəsri də elə publisistik səciyyəli idi. Səbəbi odur ki, Ağəddin janrından asılı olmayaraq hər hansı yazıda gerçəkliyə, həyat həqiqətinə sadiq qalmağa çalışırdı.

Ağəddinin publisistikası, əgər belə demək mümkünsə, bir az sərt, bir az cod publisistika idi. O, həyatda, ictimai mühitdə baş verən prposesləri sanki hələ tam aydınlaşmamış, ilkin halda bir sıra cizgiləri ilə birgə qələmə alırdı. Amma onun qabaqcadan dediyi söz sonralar təsdiqlənir, reallıq kəsb edirdi.

Doxsanıncı illərin əvvəllərində yazdığı "Hanı bu millətin pullu kişiləri, hanı?", "Ögey-doğmalıq, yoxsa haqsızlıq?", "Sökün pərdələri", "Ağaclar da ağlayarmış", "Payız imtahana çəkir", "Şuşa, Laçın- doqquzmərtəbəli binanın onuncu mərtəbəsi", "Bu dərdə dözmək olmur, yaxud Ağdam da müqavimətsiz təslim oldu", "Dəryada balıq çoxdur, okeanımız isə quruyub", "Hər kəs öz işi ilə məşğul olsa.." publisistik yazıları cari publisistikanın ən gözəl nümunələri idi. Doxsanıncı illərin ən mürəkkəb, ziddiyyətli hadisələri bu yazılarda sərt publisist mövqeyindən qiymətləndirilirdi. Mən deyərdim ki, bu yazıların hər biri o dövrdə bir həyəcan siqnalı idi.

Ağəddin məhsuldar işləyirdi. Bu ona uşaqlıqdan sirayət etmişdi. Zamanı, vaxtı gözləmir, qələm yoldaşları kimi maddi durumu pislənəndə qələmdən uzaqlaşmırdı. Bir də görürdün ki, Özbəkistana səfəri zamanı müşahidə etdiklərini oturub bir kitaba çevirir. Gözəl insan, sumqayıtlıların rəğbətini qazanmış, Dağlıq Qarabağ səmasında həlak olmuş Zülfü Hacıyev haqqında povest yazır. Bir sözlə publisist Ağəddinin qələmi dinclik bilmirdi. Son kitabı Xalq yazıçısı Hüseyn Abbaszadə haqqında idi. Hüseyn müəllim xəstə idi, son günlərini yaşayırdı, Ağəddin onun həyat yolu, yaradıcılığı, sənət haqda fikirlərini o kitabda əks etdirdi.

Ağəddin Mansurzadə həm də maraqlı nəsr əsərlərinin müəllifi idi.Əvvəllər uşaqlar üçün hekayələr yazırdı, sonralar isə gerçəkliyin daha mürəkkəb, təzadlı hadisələrini qələmə aldı. "Səmənd atın qayıtması" povestini mən onun nəsr əsərləri içərisində bədii səviyyəsinə görə ən sanballı bir əsər hesab edirəm. Buradakı Nağı kişi obrazı son dərəcə həyati və inandırıcı idi. Dünya dəyişir, insan münasibətləri-həyata, zamana baxışlar yeniləşir, bu yeniləşmədə bəzən ifrat mənfi hallar meydana çıxır. Nağı kişi isə elin saflı-



ğını, kəndin təbiiliyini, müqəddəs adət-ənənələri varlığı kimi qoruyub saxlayır.. Onun "Qış soyuq keçmədi", "Verən əl kasad olmaz" povestləri də maraqlı idi, bu əsərlərdə, eləcə də onun bir çox hekayələrində dil səlisliyi, xalqdan gələn təbii ifadələr və ən başlıcası, obrazların canlılığı diqqəti cəlb edirdi. Ağəddinin hekayələri qısa, lakonik, amma bədiilik meyarınca mətləbli, klassik hekayə tipinə uyarlı nümunələrdir. "Fəryad", "Ölü götürənlər", "Lal Vəli", "Kostroma inəyi", "Zümzümə","Şəhərə münəccim gəlib", "Vedrə", "Papaqçı Tərlan", "Zümzümə" hekayələrinin adını çəkə bilərəm. Ağəddinin 60 yaşı münasibətilə 2000-ci ildə həftəlik "Pəncərə" qəzetinin (redaktoru Qalib Əhmədov idi) xüsusi buraxılışını vərəqlədim. Səmimi, ürək açıqlığı ilə deyilmiş sözləri oxudum. O zaman Ağəddin sağ idi, Həcc ziyarətindən qayıtmışdı. Bütün Qafqazın şeyxi Hacı Allahşükür Paşazadə haqqında bir kitab qələmə almışdı..O kitab böyük din xadiminin obrazını, ali ruhani-müqəddəs insan keyfiyyətlərini bizə tanıtdırırdı.

Sumqayıtda hamımızın yaxşı tanıdığı bir publisist-Feyzi Mustafayev yaşayırdı (Allah rəhmət eləsin!), o. Ağəddinin insani keyfiyyətlərini belə səciyyələndirirdi: "Heç birimiz dərdimizi ona deməyə ehtiyat etmirik. O, dost-tanışlarına ərklə yanaşır ki, özünə də ərk etsinlər. Onun dostlarını göz önünə gətirəndə düşünürəm: qardaş belə olar! Qardaşlarını göz önünə gətirəndə deyirəm, dost belə olar! Ağəddinlə dost olanın düşməndən qorxusu yoxdur! Ağəddin olan yerdə sədaqət, səmimiyyət var. İlqar-iman, hörmət-izzət var".

Sumqayıtda hamı ona bir ağsaqqal kimi yanaşırdı. Şairə Ofelya Babayeva yazmışdı: "Hacı Ağəddinin gözəl xüsusiyyətləri çoxdur. Ancaq bir xüsusiyyəti haqqında danışmaya bilmərəm. Xeyirxahlıq! Bəli, onunla adicə salamlaşan adama da dünyanın ən böyük xeyirxahlığını etməyə hazırdır. Hətta bu yolda ən böyük maniələr olsa belə.. Bir-iki ilin söhbətidir. Sumqayıt ədəbi mühitinin rəhbərliyi haqqında şəhər icra hakimiyyətində söz-söhbət dolaşmaqda idi. Bu dedi-qodunun sonu yaxşı ola bilməzdi. Elə bu zaman Hacı özünəməxsus ağsaqqal missiyasını üzərinə götürüb, şəhər icra hakimiyyəti rəhbərliyinə müsbət təsir göstərə bildi".

Yazıçı-tədqiqatçı Əlisəftər Hüseynov isə yazırdı: "Hacı Ağəddinin SÖZÜ ilə ÖZÜ bir-birinə bərabər olan, yazdıqları ilə əməlləri bir-birini tarazlaşdıran təmiz qələm sahiblərindəndir".

O, heç yetmiş yaşını da görmədi. Çox yaşamadı, amma onu tanıyanların qəlbində həmişə yaşadı.

İnanırıq ki, bu gözəl insanın 75 yaşı Sumqayıtda da, Bakı da da layiqincə qeyd olunacaq.

Gözləyirik!